30.01.2025 tarixində Naxçıvan Dövlət Universitetində SUP VC şirkətinin təşkilatçılığı, İRİA-nın (İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi) dəstəyi və NDU-nun tərəfdaşlığı ilə "İnnostart 1" Hakatonu baş tutub.
Ümumilikdə, Naxçıvan Muxtar Respublikasının fərqli bölgələrindən qoşulan 40-dan çox iştirakçı və 11 komanda formalaşdırılıb. Bu komandalardan ilk 3-ü müəyyənləşdirilərək mükafat əldə ediblər və eləcə də 4-cü yer seçilərək 4 komanda öz ideyalarını startap formatında davam etdirmək üçün "İnnostart" İnkubasiya Proqramına dəvət ediliblər.

- Qalib komandalar:
- 1. Sepcdeaf - eşitmə əgəlli insanlar üçün eynəyə montaj edilən səsi yazıya çevirən qurğu
- 2. OnePhram - elektron resept və apteklərdən onlayn çatdırılma
- 3. SafeOrbit - oyun oynayaraq proqramlaşdırma öyrənmək üçün platforma

Qeyd edək ki, proqram daxilində ikinci hakaton fevral ayının sonu keçirilməsi nəzərdə tutulur

- İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) dəstəyi və Azərbaycanın aparıcı innovasiya şirkətlərindən biri olan SUP VC-nin təşkilatçılığı ilə keçirilən “Innostart” layihəsinin “Grand Final” mərhələsi keçirilib. Ölkənin müxtəlif bölgələrindən yüzlərlə gənci və startapçını bir araya gətirən layihənin yekununda finala çıxan 17 komanda arasından “Backlify”, “SaleX”, “Specdeaf” və “İmYen” startapları 50 min manatlıq mükafat fonduna layiq görülüb.
- Tədbirdə dövlət qurumları, özəl şirkətlər, startap təsisçiləri və innovasiya mütəxəssisləri iştirak ediblər. Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov çıxışında son illərdə həyata keçirilən “Onlayn Azərbaycan” layihəsinin ölkədə innovasiya mühitinə geniş imkanlar açdığını vurğulayıb. O, həmçinin “Innostart”, “ecomX” və “4-ü 1arada” kimi təşəbbüslərin regionlarda yeni nəsil sahibkarlığın inkişafına mühüm dəstək verdiyini bildirib.
- İRİA-nın sədri Fərid Osmanov isə layihənin regionlarda yaratdığı təsirdən danışaraq, təkcə 2024-2025-ci illərdə 4 regionda, 20 şəhər və rayonda 32 maarifləndirmə tədbiri, 8 hakaton, 8 inkubasiya proqramı və 4 “Demo Day”in təşkil edildiyini qeyd edib. Bu tədbirlərdə 2000-dən çox iştirakçı yer alıb. Bundan əlavə, 18 yeni mentor hazırlanıb, müxtəlif dövlət və özəl qurumlarla əməkdaşlıq əlaqələri qurulub.
- Final mərasimində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin nümayəndəsi Samir Hümbətov və layihənin baş təşkilatçısı olan SUP VC şirkətinin icraçı direktoru Rəşad Eyvazov da çıxış ediblər. Rəşad Eyvazov layihənin regionlarda sahibkarlıq mühitinin formalaşmasındakı əhəmiyyətini xüsusi vurğulayıb. O bildirib ki, “Innostart” proqramı vasitəsilə yüzlərlə gənc öz ideyalarını biznes modelinə çevirmək imkanı qazanıb və regionlarda yaradıcı mühitin formalaşmasına ciddi təkan verilib.
- Onun sözlərinə görə, SUP VC təkcə paytaxtda deyil, Azərbaycanın müxtəlif şəhər və rayonlarında startapların inkişafı üçün zəruri dəstək mexanizmləri qurur. Bu çərçivədə təşkil edilən hakatonlar, inkubasiya proqramları və mentorluq sessiyaları gənclərə ideyalarını praktiki layihələrə çevirmək üçün real imkanlar yaradıb.
- Tədbir çərçivəsində layihənin statistik göstəricilərini əks etdirən təqdimat nümayiş etdirilib, startap komandaları öz layihələrini təqdim ediblər, mentor hazırlığı proqramının məzunlarına sertifikatlar təqdim olunub.
- Qeyd edək ki, “Innostart” layihəsi Azərbaycanın regionlarında startap ekosisteminin inkişafına sistemli yanaşmanı təmin edən əsas platformalardan biridir. İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) dəstəyi və SUP VC-nin təşkilatçılığı ilə həyata keçirilən bu təşəbbüs gənclərin innovativ ideyalarını biznesə çevirməsinə, onların qlobal bazarlara çıxış imkanlarının artırılmasına və güclü yerli icmaların formalaşmasına şərait yaradır.




INNOSTART GRAND FINAL
DEMO DAY
2500 AZN
2500 AZN
2500 AZN
2500 AZN


1500
İnvestisiya
3000
İnvestisiya
500
İnvestisiya